


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 92 (21.502)

*20 may 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Belarus Respublikası Baş nazirinin müavini Mixail Rusıyı qəbul edib.

Bakıda keçirilən "Caspian Agro-2016" Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisindən danışan dövlətimizin başçısı Belarusun bu sərgidə həmişəki kimi uğurla təmsil olunacağına, öz potensial və imkanlarını layiqli şəkildə nümayiş etdirəcəyinə əminliyini ifadə edib. Ölkəmizdə kənd təsərrüfatının fəal inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev Belarus tərəfinin sərgidə nümayiş etdirəcəyi məhsulların Azərbaycanın müvafiq qurumlarının marağına səbəb olacağına əminliyini bildirib. Qısa zaman ərzində ölkəmizin Belarus Respublikası ilə kənd təsərrüfatı sahəsində uğurlu layihə həyata keçirdiyini bildirən Prezident İlham Əliyev birgə istehsal edilən məhsulların artıq ixrac olunduğunu deyib.

Ölkəsinin Azərbaycan ilə kənd təsərrüfatı sahəsində uğurlu əməkdaşlıq etdiyini bildirən Belarus Respublikası Baş nazirinin müavini Mixail Rusıy Bakıya səfərinin iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrinə dair məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığını vurğulayıb.

Görüşdə müxtəlif sahələrdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## 2016-cı ilin yanvar-aprel ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2016-cı ilin yanvar-aprel aylarında 654 milyon 513 min 200 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz artaraq 1470,2 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 308 milyon 220 min 900 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 2,8 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-aprel ayları ərzində muxtar respublikada əsas kapitala 276 milyon 142 min 500 manat həcmində investisiya yönəldilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 260 milyon 335 min manatı və ya 94,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2016-cı ilin yanvar-aprel aylarında informasiya və rabitə xidmətlərinin həcmi 16 milyon 31 min manata yaxın olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 13 milyon 135 min 300 manat olmaqla bir il öncəki göstəricini 1,4 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar-aprel ayları ərzində 35 milyon 420 min manatdan artıq həcmdə kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 4,1 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada diri çəkidə 7,3 min ton ət, 24,3 min ton süd istehsal edilmiş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,6 faiz, süd istehsalı 1,5 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2016-cı ilin yanvar-aprel aylarında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 478 milyon 339 min 800 manat, onun hər bir nəfərə düşən həcmi isə 1,3 faiz yüksələrək 1074,4 manat təşkil etmişdir.

* * *

2016-cı ilin yanvar-mart aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 400,6 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 may 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 56934-ə çatmışdır ki, bunun da 51077-si və ya 89,7 faizi aktiv hesablardır. 2016-cı ilin yanvar-aprel aylarında açılmış 7978 bank hesabının hamısı aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 may 2016-cı il tarixə 1134-ə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə şərait yaratmış, cari ilin yanvar-aprel aylarında muxtar respublikada 108536,5 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 2,1 faiz artaraq 96760,3 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmiş, 85 milyon Amerika Birləşmiş Ştatları dollarına yaxın həcmdə müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. Qeyd olunan dövrdə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 13765,8 min manat məbləğində kreditlər verilmişdir.

* * *

2016-cı ilin yanvar-aprel aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 1775 min manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çoxdur.

* * *

Cari ilin yanvar-aprel aylarında muxtar respublikaya 123 min 486 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 4,1 faiz çoxdur.

* * *

1 aprel 2016-cı il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4811 nəfər və ya 1,1 faiz artaraq 445495 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf ölkə iqtisadiyyatının tərəqqisində mühüm rol oynayan avtomobil yollarının bərpası və yenidən qurulmasına əlverişli şərait yaradıb.*

## Gərməçataq kəndinə yeni avtomobil yolu çəkilib

Bu istiqamətdə işlər ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. "Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı"na uyğun olaraq, ölkəmizdə, o cümlədən muxtar respublikamızda yol-nəqliyyat kompleksinin yeniləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib. Naxçıvan-Sədərək, Naxçıvan-Culfa, Naxçıvan-Şahbuz-Batabat magistralı, Naxçıvan dairəvi avtomobil yolu, Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, Çeşməbasar-Boyəhməd və Hacıvar-Sirab-Vayxır avtomobil yolu yenidən qurularaq istifadəyə verilib. Təkcə bir faktı qeyd edək ki, son 19 ildə muxtar respublikamızda 3221 kilometr uzunluğunda yeni avtomobil yolu salınıb ki, bu da 1924-1995-ci illər ərzində salınmış 1320 kilometr uzunluğunda avtomobil yollarından 2,4 dəfə çoxdur. Ötən ildə də bu istiqamətdə işlər uğurla davam etdirilib, 32 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu yenidən qurulub.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin Baş direktoru Bəhruz Əsgərov bizimlə söhbətində qeyd etdi ki, yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalı üçün möhkəm zəmin yaradılıb, müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilib. Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan Yol İstismar idarələrinin maddi-texniki bazası möhkəmləndirilib, şirkət istehsal olunan asfaltın vaxtında yerlərə çatdırılması və asfalt-beton örtüyünün keyfiyyətlə salınması üçün müasir mexanizmlərlə təmin olunub. Bu da, təbii ki, genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilən muxtar respublikamızda yol infrastrukturunun yenidən qurulmasına, həmçinin ayrı-ayrı yaşayış məntəqələrində tikilib istifadəyə verilən inzibati və sosial obyektlərin ətrafına asfalt-beton örtüyün salınmasına imkan verib.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan Yol İstismar idarələrinin kollektivləri respublika və yerli əhəmiyyətli yollarda əsaslı və cari təmir işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərir, kəndarası və kəndlərarası yolların müasir standartlara uyğun qurulmasını diqqət mərkəzində saxlayır. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilib, Babək rayonunun ucqar dağ və sərhəd kəndi olan Gərməçataq kəndinə yeni avtomobil yolunun çəkilişinə başlanılıb. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin müasir maşın-mexanizmləri və təcrübəli inşaatçılarının cəlb olunduğu obyektdə inşaat işləri vaxtında və keyfiyyətlə aparılıb, Cəhri-Buzqov avtomobil yolundan Gərməçataq kəndinədək yeni avtomobil yolu çəkilib. Layihəyə uyğun olaraq eni 6 metr, uzunluğu 6 kilometr olan yeni avtomobil yolunda torpaq işləri başa çatdırılıb, selötürücülər tikilib, suötürücü borular salınıb, boru başlıqları betonlanıb. Yola qum-çınqıl qatı verilərək torpaqbərkitmə işləri aparılıb. Hazırda asfalt-beton örtüyün salınmasına hazırlıq görülür.

**Xəbərlər şöbəsi**

## Torpaqların su təminatı yaxşılaşdırılır



*Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi suvarma mövsümünün mütəşəkkil keçirilməsi üçün ardıcıl tədbirlər görür, sututarlara suvarma suyunun yığılması işi davam etdirilir.*

Hazırda muxtar respublikanın sututarlarında 249,6 milyon kubmetr su ehtiyatı vardır. Aprel ayında 9,75 kilometr magistral kanal, 49,20 kilometr ara arxları və 2,8 kilometr kollektor lildən təmizlənmiş, 11,19 kilometr yeni suvarma xətti çəkilmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini daşqın və sel sularından qorumaq məqsədilə 2,5 kilometr istiqamətləndirici bənd salınmış, Araz çayı ətrafında 856 metr məsafədə sahilbərkitmə işi görülmüşdür.

Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən 107 hektarlıq sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir. Ötən ay ərazidə 428 metr müxtəlif diametrli boru xətti çəkilmiş, subölücü hovuzlar tikilmişdir. Şərur rayonunun Ələkli, Xanlıqlar və Vərməziyar kəndlərində suvarma tədbirlərini yaxşılaşdırmaq məqsədilə Arpaçay sol sahil kanalından 3 kilometr məsafədə suvarma boru xəttinin çəkilişi başa çatdırılmışdır. Culfa rayonunun Dizə kəndində isə artezian quyusu qazılaraq 35 hektar sahə əkin dövriyyəsinə qatılmışdır. Ümumiyyətlə, ötən ay muxtar respublikada 71 subartezian quyusu təmir olunmuşdur. Bu dövrdə 6 kəhrizdə də təmir işləri davam etdirilmişdir.

Muxtar respublikanın bütün yaşayış məntəqələrində dayanıqlı və keyfiyyətli içməli su təminatı yaradılır, yeni kanalizasiya sistemləri qurulur. "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərinin Tumbul, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində 10,8 kilometr kanalizasiya, 15 kilometr içməli su xətti çəkilmişdir. Babək rayonunun Şıxmahmud kəndində isə 3842 metr kanalizasiya və 4,1 kilometr içməli su xətti çəkilmiş, 93 ev birləşməsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*– Qonşu, benzin tapsan, bizi də apar. Sübh tezdəndən gedək Nehrəmə, ya da Cəhriyə. Görək, 1-2 kiloqram ət ala bilərik? Bu, təkcə mənim və qonşularımın deyil, 90-cı illəri yaşayan hər kəsin gündəlik qayğısı, problemi idi. İnsanlar ərzaq qıtlığı ilə üz-üzə qalmışdı. Bir təsərrüfatsızlıq hökm sürür, əkinçilik və heyvandarlıqla məşğul olan kəndli belə, əsas məşğuliyyətindən uzaq düşmüşdü. Naxçıvandan başlanan, sonra ölkəmizin digər regionlarında tətbiq edilən aqrar islahatlar öz bəhrəsini verdi, MDB məkanında belə, bu müsbət təcrübədən istifadə olundu. Ayrı-ayrı sahələrin inkişafı ilə bağlı dövlət proqramları qəbul edildi, icrası təmin olundu.*

## *“Bərəkət”* Məhdud Məsuliyyətli Cəmiyyətinin damazlıq təsərrüfatı öz fəaliyyətini genişləndirib



Muxtar respublikamızda digər sahələrdə olduğu kimi, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi, daxili bazarın keyfiyyətli yerli ərzaq məhsulları ilə təminatında mühüm rol oynayan ətlik-südlük istiqamətli heyvandarlıq təsərrüfatlarının yaradılmasına və mövcud təsərrüfatların genişləndirilməsinə əlverişli şərait yaradıldı. Heyvanların cins tərkibinin yaxşılaşdırılması tədbirləri davam etdirildi, muxtar respublikaya, ümumilikdə, 1937 baş damazlıq cins mal-qara gətirilərək lizinq yolu ilə satışı həyata keçirildi. Heyvanların cins tərkibinin yaxşılaşdırılması təkcə xaricdən alınıb gətirilən mal-qara ilə məhdudlaşmadı. “Bərəkət” Məhdud Məsuliyyətli Cəmiyyətinin damazlıq təsərrüfatında yerli şəraitə uyğunlaşdırılmış damazlıq düyələr təsərrüfatlara verildi. Baytar texniklər süni mayalandırma avadanlıqları və texnika ilə təmin olundu. Ətlik və südlük maldarlığın inkişafı istiqamətində 40 mindən yuxarı toxum preparatları gətirilərək yerli cins malqarada süni mayalanma aparıldı. Ümumilikdə, 2008-2015-ci illər ərzində muxtar respublikada 43 min 132 baş mal-qara mayalandırıldı və 28 min 760 baş sağlam bala alındı. Bu dövrdə muxtar respublikada yeni yaradılan və genişləndirilən heyvandarlıq təsərrüfatlarının sayı 275-ə çatdırıldı. İri heyvandarlıq təsərrüfatları ilə yanaşı, fərdi təsərrüfatlarda da artım müşahidə olundu.

Artıq – yemə çəkdiyim xərci çıxarmır, – deyib heyvandarlıqdan uzaq düşən kəndlinin təsərrüfatında Almaniya, Avstriya, Türkiyə və İran İslam Respublikasından alınıb gətirilmiş ətlik, südlük cins mal-qara var.

Muxtar respublikada ət, süd və digər ərzaq məhsulları istehsal edən müəssisələrin modernləşdirilməsi və bu sahədə yeni müəssisələrin yaradılması istiqamətində Sahibkarlığa Kömək Fondu tərəfindən müxtəlif investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət maliyyə dəstəyi göstərilir. “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən yaradılan, heyvandarlığın inkişafında mühüm rol oynayan, istehsal gücü saatda 3-3,5 ton və istehsal gücü saatda 10 ton olan 2 qarışıq qüvvəli yem istehsalı sahəsinin, Şərur rayonunda gündəlik istehsal gücü 10 ton olan qarışıq yem və Culfa rayonunda gündəlik istehsal gücü 500 kiloqram olan yem istehsalı sahələrinin fəaliyyətə başlaması heyvandarlıq təsərrüfatlarının inkişafında mühüm rol oynayıb.

Ətlik-südlük heyvandarlıq təsərrüfatlarının illik qüvvəli yemə tələbatı 50 min tondan çox olan muxtar respublikamızda bu müəssisələrin istifadəyə verilməsi ilə qüvvəli yemə olan tələbat 100 faiz ödənilib, idxaldan asılılıq tamamilə aradan qaldırılıb. Bu sahənin gələcək perspektiv inkişafı da diqqət mərkəzində saxlanılır.

Ümumilikdə, aqrar sahədə aparılan tədbirlər ərzaq zənbilimizin əsasını təşkil edən ət, süd və süd məhsullarının artımına da müsbət təsir göstərir. 2015-ci ildə 2008-ci ilə nisbətən ət istehsalı diri çəkidə 8658 ton artaraq 25 min 296,6 tona, süd istehsalı 8201,3 ton artaraq 80 min 243,6 tona çatdırılıb.

Heyvandarlıq təsərrüfatlarını yerli şəraitə uyğunlaşdırılmış məhsuldar cins mal-qara ilə təmin edən “Bərəkət” Məhdud Məsuliyyətli Cəmiyyətinin damazlıq təsərrüfatı bu sahənin inkişafında mühüm rol oynayıb. Özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib, damazlıq istiqamətli heyvandarlıq təsərrüfatının yaradılması üçün Babək rayonunun ərazisində, Naxçıvan-Culfa magistral avtomobil yolunun kənarında torpaq sahəsi ayrılıb. Heyvandarlıq təsərrüfatında mal-qaranın bəslənilməsi üçün 6 bina inşa olunub. Həmin binalarda Türkiyə istehsalı olan kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş müasir texnoloji avadanlıqlar quraşdırılıb, binanın təmizlənməsi, mal-qaranın yemlənməsi və suvarılması üçün tam avtomatlaşdırılmış xətt istifadəyə verilib, havalandırma sistemi qurulub. Onu da qeyd edək ki, heyvandarlıq təsərrüfatları əvvəllər qarışıq qüvvəli yemi xaricdən alıb əlavə daşınma xərci çəkir, vaxt itkisi ilə üzləşirdilərsə, artıq muxtar respublikamızda yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması ilə bu problem aradan qaldırılıb. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti vasitəsilə Almaniya, Avstriya, Türkiyə və İran İslam Respublikasından alınıb gətirilən “Holştin Friz”, “Simmental” və “Şvis” cinsdən olan damazlıq düyələr kompleksdə yerli şəraitə uyğunlaşdırıldıqdan sonra digər heyvandarlıq təsərrüfatlarına və fərdi sahibkarlara lizinq yolu ilə satılır. Damazlıq düyələr 3200 manat qiymətləndirilir ki, onun da 20 faizi ilkin, qalan məbləğ isə sonrakı 3 il müddətində mərhələlərlə ödənilir. Hazırda kompleksdə 342 baş “Holştin Friz”, 452 baş “Simmental”, 13 baş “Şvis” cinsi olmaqla, 339 baş inək, 196 baş buzov, 130 baş dana, 82 baş düyə və 60 baş öngə bəslənilir. Təlimata uyğun olaraq müəyyən olunmuş şəraitdə bəslənilən mal-qaranın sağlamlığı baytar-həkim tərəfindən daim nəzarətdə saxlanılır.

Heyvandarlıq kompleksinin qaba və yaşıl yemə olan tələbatının ödənilməsi üçün əlverişli şərait yaradılıb. Əl əməyinin yüngülləşdirilməsində və əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsində mühüm rol oynayan texnika və texnoloji avadanlıqların alınması da diqqət mərkəzində saxlanılıb. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətindən traktor, kotan, toxuməkən, toxumsəpən, toxumtəmizləyən, qarğıdalıbiçən, kanal və moraaçan alınıb. Kənd təsərrüfatı texnikalarından səmərəli istifadə edilməklə ayrılmış sahələrdə yonca, arpa və silos üçün qarğıdalı əkini keçirilir, qaba və yaşıl yemə olan tələbat daxili imkanlar hesabına ödənilir. Sahələrdən toplanan qaba və yaşıl yem kompleksin ərazisində qurulmuş çardaqlarda saxlanılır ki, bu da heyvanların qidalanmasında vacib şərtdir. Əks təqdirdə, açıq havada, qar, yağış altında saxlanılan yaşıl yem kiflənər və bu yemlə qidalanma döl kampaniyasına mənfi təsir göstərər, sahibkarın bir il ərzində çəkdiyi xərc hədər gedər.

Hazırda 270 baş sağmal inək bəslənilən kompleksdə süd sağımı üçün də əlverişli şərait yaradılıb, burada iki sex tikilib istifadəyə verilib. İstər sağıma hazırlıq, istərsə də sağım prosesi sanitar-gigiyenik qaydalara ciddi əməl olunmaqla aparılır. Bir nömrəli süd sağımı sexində eyni vaxtda 24, iki nömrəli süd sağımı sexində isə 40 baş inəyin 12-13 dəqiqəyə sağılması son model avadanlıqlarla aparılır.

“Bərəkət” Məhdud Məsuliyyətli Cəmiyyətinin damazlıq təsərrüfatının ərazisində salınmış, damcı üsulu ilə suvarılan, 18 hektar sahəni əhatə edən meyvə bağında alma, armud, ərik, gilas, cəviz, gavalı, şaftalı, heyva, fıstıq tingləri olmaqla, ümumilikdə, 10 minə yaxın meyvə ağacı ərsəyə gedir.

Kompleksdə istehsal olunan məhsulların, necə deyərlər, alıcısı da başının üstündədir. Son illər tikilib istifadəyə verilən, yerli xammalla işləyən kənd təsərrüfatı təmayüllü emal və sənaye müəssisələri istehsalçıların alıcı problemi ilə üzləşməsinə imkan vermir. Hər inəkdən orta hesabla gündəlik 20-25 litr süd sağılır ki, bu məhsul da xüsusi çənlə təmin olunmuş maşınlarla “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinə, ətlik mal-qara “Bərəkət” Ət Məhsulları Kompleksi Məhdud Məsuliyyətli Cəmiyyətinə, barverən meyvə ağaclarından mövsümdə toplanan məhsul isə “Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinə təhvil verilir. Emal müəssisələrində istehsal edilən, ət, süd, süd məhsulları və meyvə nektarları alıcılar tərəfindən rəğbətlə qarşılanır. Təbii ki, bu da heyvandarlıq təsərrüfatının maliyyə imkanlarını artırır, ildən-ilə genişlənməsinə əlverişli şərait yaradır.

Bir vaxtlar Naxçıvan bazarında özünə yer tutan, xaricdə istehsal edilmiş, mənşəyi məlum olmayan kərə yağı, qatıq, ayran, meyvə şirələrinin yerini indi yerli xammaldan istifadə olunmaqla istehsal edilən “Bərəkət”, “Badamlı” tanıtım nişanı ilə satışa çıxarılan, yüksək keyfiyyəti ilə seçilən Naxçıvan məhsulları tutub.

“Bərəkət” Məhdud Məsuliyyətli Cəmiyyətinin damazlıq təsərrüfatı daxili bazarı yüksəkkeyfiyyətli yerli ərzaq məhsulları ilə təmin etməklə bərabər, əhalinin məşğulluğunun təmin olunmasına da əlverişli şərait yaradıb. Hazırda kompleksdə 42 nəfər çalışır ki, onlar da yüksək əməkhaqqı, xüsusi geyim formaları, isti yemək və servis xidməti ilə təmin olunublar.

✍ **Kərəm HƏSƏNOV**

## Yaşıl Kart sığortasının faydaları

***Müasir dövrdə insanların səyahət etmək imkanlarının genişlənməsi öz avtomobili ilə xaricə səfər edənlərin sayında artıma səbəb olmuşdur. Bu səfərlər zamanı hər bir insanı daha çox düşündürən şərtlərdən biri də səyahətin təhlükəsiz və rahat olmasıdır. Bu baxımdan fərdi avtomobili ilə xarici ölkələrə səyahətə çıxanlara təklif olunan Yaşıl Kart sığorta şəhadətnaməsi mühüm yeniliklərdən biri kimi ölkəmizdə və muxtar respublikamızda da tətbiq olunur.***

Hazırda, əsasən, Avropa ölkələrində geniş tətbiq olunan Yaşıl Kart sistemi buna qoşulmuş bütün ölkələrdə tanınan vahid mülki məsuliyyət sığortası növüdür. Bəri başdan qeyd edək ki, səyahətçilərin avtomobillərlə bir ölkədən başqa bir ölkəyə səfəri zamanı tətbiq olunan bu yeni sığorta növü bir çox cəhətlərinə görə sürücülər üçün çox faydalıdır. Belə ki, ölkə ərazisində hərəkət zamanı tələb olunan standart mülki məsuliyyət sığortasından fərqli olaraq müəyyən müddətə belə sığorta şəhadətnaməsini alan avtonəqliyyat vasitəsi sahibləri xarici ölkələrə hər gedişi üçün yeni müqavilələr bağlamaqdan azad olurlar. Başqa sözlə, Yaşıl Kart bu sistemə qoşulmuş ölkələrin ərazisində tanınan bir mülki məsuliyyət sığortası şəhadətnaməsi kimi hər bir sığortalıya rahat səyahət zəmanəti verir.

Yaşıl Kart sistemi ilə əldə olunan beynəlxalq sığorta şəhadətnaməsinin möhkəm hüquqi bazası vardır. Belə ki, hazırda “Yaşıl Kart” haqqında Sazişin iştirakçıları olan 48 ölkənin hər hansı biri tərəfindən verilmiş avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığorta şəhadətnaməsi həmin sazişin iştirakçısı olan digər bütün dövlətlərin ərazisində etibarlı sayılır. 1 yanvar 1953-cü il tarixdən tətbiq olunmağa başlanılmış bu sığorta sistemi Azərbaycan Respublikasında cari ilin əvvəlindən tətbiq edilir. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa 2014-cü il 25 dekabr tarixdə edilmiş dəyişikliklərə əsasən, Azərbaycanın Yaşıl Kart sisteminə qoşulması ilə bağlı Qanuna yeni müddəalar əlavə edilmişdir. Qanuna görə, Azərbaycan vətəndaşları xaricə səfərə çıxarkən ölkəmizdəki sığorta agentliyi ilə bağladıqları Yaşıl Kart sığortası zəmanəti ilə səyahət etdikləri ölkələrdə törətdikləri yol-nəqliyyat hadisələri nəticəsində vurduqları zərərin əvəzi hadisənin baş verdiyi ölkənin daxili qanunvericiliyinə uyğun qaydada ödənilir.

Bəs hər bir yenilik kimi bu yeni sığorta növü də Azərbaycan vətəndaşlarına nə kimi üstünlüklər vəd edir? İlk olaraq onu qeyd edək ki, hər gün çox sayda azərbaycanlı turist və işgüzar adamlar müxtəlif məqsədlərlə öz avtomobili ilə xarici ölkələrə səyahət edir. Əgər nəzərə alsaq ki, Azərbaycanla qonşu ölkələr Rusiya, Türkiyə və İranda da bu sığorta sistemi tətbiq olunur, onda ölkəmizdən çıxmadan gördüyümüz hazırlıq işləri zamanı Yaşıl Kart sığorta müqaviləsini də bağlayıb rahat səyahətə başlaya bilərik. Yaşıl Kart sığortasının ikinci bir rahatlığı ondan ibarətdir ki, sürücülər və onlarla bərabər olan digər sərnişinlər sərhədkeçid məntəqələrində günün müəyyən saatlarında çox zaman müşahidə olunan sıxlıqla əlaqədar əlavə vaxt itirməkdən də azad olurlar. Digər bir mühüm üstünlük isə səyahət edərkən bəzən bir deyil, iki və daha çox ölkənin ərazisinə daxil olduqda bu sığorta müqaviləsini bağlamış olan sürücülər daha az sığortahaqqı xərcləri çəkirlər. Misal üçün, bu gün daha çox istifadə olunan fərdi avtonəqliyyat vasitələrindən mühərrikinin iş həcmi 1501 $sm^3$-2000 $sm^3$ olan avtomobillərlə bir aylığa xaricə səyahət edən sürücü müvafiq tarifə görə cəmi 17 manat ödəməklə əldə etdiyi Yaşıl Kart sığorta şəhadətnaməsi ilə bütün səyahət boyu öz mülki məsuliyyətini sığortalamış olur. Qeyd etmək lazımdır ki, mövcud qanunla vətəndaşların xaricə səyahət müddətinə və intensivliyinə görə 1, 3, 6 və 12 ayadək müddətdə sərfəli sığorta müqavilələri bağlamaq mümkündür.

Ölkəmiz inkişaf edir və sığorta sistemində də beynəlxalq inteqrasiya müasir dövrün aktual məsələlərindən biridir. Yaşıl Kart sığorta sisteminin ölkəmizdə və muxtar respublikamızda tətbiqi də artıq iqtisadi gücümüzün və Azərbaycan vətəndaşlarının yüksələn rifahının doğurduğu bir tələbatdır.

**Hafiz HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin əməkdaşı***

## Culfa Rayon Prokurorluğu hüquqi-maarifləndirmə tədbiri keçirib

*Yeni qəbul olunmuş İnzibati Xətalar Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə bağlı Culfa Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Ərəfsə kəndində maarifləndirici tədbir keçirilib.*

Tədbirdə Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov “Yeni qəbul olunmuş İnzibati Xətalar Məcəlləsinin mahiyyəti və İnzibati Xətalar Məcəlləsində prokuror nəzarəti” mövzusunda çıxış edib.

Bildirilib ki, İnzibati Xətalar Məcəlləsi ölkəmizin hüquq sistemində məsuliyyət müəyyən edən qanunlardan biridir. Azərbaycan Respublikasının əvvəlki İnzibati Xətalar Məcəlləsi 2000-ci il iyulun 11-də qəbul edilib və indiyədək bu Məcəlləyə 280-dən çox əlavə və dəyişiklik edilib.

29 dekabr 2015-ci ildə qəbul edilmiş və 1 mart 2016-cı il tarixdə qüvvəyə minmiş yeni İnzibati Xətalar Məcəlləsi özündə bir sıra yenilikləri ehtiva edir. Məzmun və struktur baxımından təkmilləşdirilən yeni Məcəllə 609 maddə və 40 fəsildən ibarətdir. Əvvəlki Məcəllə ilə müqayisədə yeni Məcəllədə 5 fəsil və 151 maddə artırılıb. Məcəlləyə yeni fəsil əlavə edilib ki, bu da inzibati xətalar üzrə işlərə baxmaq səlahiyyəti olan orqanlar tərəfindən elektron informasiya ehtiyatlarının yaradılması ilə bağlıdır. Digər dörd yeni fəsil isə mövcud Məcəllədə olan maddələrin qruplaşdırılması və sistemləşdirilməsi nəticəsində yaradılıb. Məcəllənin əsas yeniliyi ondan ibarətdir ki, normativ-hüquqi aktlar haqqında Konstitusiya qanununa tam uyğunlaşdırılıb və birbirini təkrarlayan, qeyri-müəyyən olan maddələr Məcəllədən çıxarılıb.

“Yeni İnzibati Xətalar Məcəlləsi qəbul edilməklə əvvəlki inzibati qanunvericiliyin məzmununun dəyişdirilməsi ilə yanaşı, bir sıra yeni qaydalar nəzərdə tutulub, yeni məsuliyyət müəyyən edən müddəalar əlavə edilib və qanunvericilik daha da zənginləşdirilib. Məcəllədə nəzərdə tutulmuş 27 maddə üzrə inzibati xətalar haqqında işlər üzrə icraat başlamaq səlahiyyəti yalnız prokurora verilib. Qalan inzibati xətalar haqqında işlər üzrə icraat başlamaq hüququ isə həm prokurora, həm də onun müavini və köməkçilərinə verilib”, – deyən Əli Adıgözəlov Məcəllənin ayrı-ayrı maddələri ilə bağlı ətraflı söhbət açıb.

Sonra Culfa rayon prokurorunun köməkçisi Afət Kərimli “Ayrı-ayrı inzibati xətalara görə məsuliyyət” mövzusunda məruzə ilə çıxış edib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Turizm marşrutlarımız:
## real imkanlar və perspektivlər

***Müasir turizmin inkişafı turistlərin məzmunlu səyahəti üçün müəyyən istiqamətlərdə təşkil olunmuş turizm və ekskursiya marşrutlarının imkanları ilə sıx bağlıdır. Təcrübə göstərir ki, bu iş turizmin təşkilinin ən əsas, yekun mərhələsidir. Belə ki, əgər turizm üçün yol, mehmanxana və digər vacib infrastruktur məsələləri həll olunubsa, bundan sonra regionda kütləvi turizm üçün məhz cəlbedici turizm marşrutları yaradılması gündəmdə durur. Bu həlledici mərhələdə isə bizim kifayət qədər resursumuz vardır. Bu baxımdan turizm marşrutları üzərində işləyərkən Naxçıvanın nə qədər dəyərli sərvətləri olduğunu görürük. Ona görə də turizm ehtiyatlarımızın daha dərindən öyrənilməsi və onların əsasında xidmətlər zərfi yaradılması günün tələbidir.***





Naxçıvanda bütün ilboyu həm yerli, həm də əcnəbi turistlərin marağını cəlb edəcək xeyli sayda turizm marşrutları vardır. Bu gün muxtar respublikamızda mərkəz nöqtəsi Naxçıvan şəhəri olmaqla, Naxçıvan-Batabat, Naxçıvan-Ağbulaq, Naxçıvan-Ordubad-Gəmiqaya, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar istiqamətlərində turizm marşrutları nəzərdə tutulmuşdur. Ancaq bu marşrutların sayının daha da artırılması və bu istiqamətlərdə satışa çıxarılan yollayışların turistlərə təqdim olunması da mümkündür. Muxtar respublikamızın dünya turizm mərkəzləri arasında tanınması üçün daha çox və rəngarəng xidmətlər təşkil olunduqca diyarımız dünyanın hər yerindən gələ biləcək tələbkar, eyni zamanda səxavətli turistlər üçün cazibədar olacaqdır.

İl ərzində Naxçıvana səyahət edən çox sayda yerli və əcnəbi turist vardır. İndi muxtar respublika özünün turizm cazibədarlığı və imici baxımından bir çox region ölkələrini geridə qoymuşdur. Naxçıvan Beynəlxalq Hava Limanı vasitəsilə Bakı, İstanbul, Moskva və Gəncə şəhərlərindən, habelə qonşu ölkələrlə 24 saat iş rejimində olan gömrük-keçid məntəqələri ilə dünyanın hər yerindən bu diyara turistlər gələ bilirlər. Naxçıvanda yaradılmış sabitlik və təhlükəsiz həyat şəraiti turistlərin burda özünü rahat hiss etməsinə imkan verir. Naxçıvana gələn turistlər, əsasən, müalicə və ziyarət, əyləncə və gəzinti, işgüzar görüşlər və tanışlıq məqsədilə buraya səyahət edirlər. Gələn turistlərin ölkə və sosial mənşəyi isə dövlət başçılarından tutmuş sadə vətəndaşlara qədər genişdir.

Turistlərin tələbatları yerli əhalidən tamamilə fərqlidir. Bir çox hallarda turizm marşrutları boyu bizə adi görünən mənzərələr turistlərdə dərin təəssürat doğura biləcək qeyri-adi bir cazibə gücünə malikdirlər. Belə ehtiyatlar isə Naxçıvanda yüzlərlə deyil, minlərlədir. Bu ehtiyatlara və göstərilən servislərdən istifadəyə əsaslanan tələbatların əvvəlcədən qiymətləndirilməsi isə turizm xidməti fəaliyyəti ilə məşğul olan sahibkarların hazırladıqları biznes planların əsas məzmununu təşkil edir. Burada hər kiçik detalın xüsusi əhəmiyyəti vardır. Misal üçün, turizm marşrutu planlayarkən Əshabi-Kəhfə gəlmiş ziyarətçilərə peşəkar foto servisi, yaxud Ordubada və ya Qarabağlara səyahət edəcək turistlərə lüks mikroavtobus kirayəsinin təşkili kimi xırda, lakin vacib məsələlər nəzərdən qaçmamalıdır.

Turizm marşrutlarımız çox zəngindir. Təkcə Əlincə-Ləkətağ istiqamətində hərəkət edən turistlərə günlərlə istənilən qədər maraq obyekti təqdim olunması mümkündür. Xüsusən ilin belə gözəl yaz günlərində bir çoxumuz həftə sonları bu ərazilərə qısamüddətli səfərlər edirik. Ancaq bu bir iş, yəni Naxçıvandakı mehmanxanaların birində yerləşmiş turistlərə təklif olunan təqdimat olduqda gözlə görünən təbii və insan əli gözəlliklərindən danışmaqla bitməz. Yerli sakin kimi bizim gözümüzə adi gələ bilər. Amma dəfələrlə olub ki, buraya ilk dəfə deyil, hətta ikinci və üçüncü dəfə gələn əcnəbi qonaqların nə qədər heyrətləndiyinin şahidi olmuşuq. Doğrudan da, axı burada Nuh Peyğəmbərdən, Dədə Qorquddan tutmuş naxçıvanlıların yeni dövrdəki fədakarlığına qədər bütöv bir tarix yaşayır. Haçadağın kiçik qardaşı, möhtəşəm Əlincəqalanın keçmişi və bu günü onun sorağına gəlmiş insanlar üçün heyrətamiz təəssürat mənbəyidir. Həm də ilin istənilən fəslində. Zaman isə dayanmır. Qədim Azərbaycan torpağının əbədi sakinləri burada daim inkişaf edən, yenilənən bir həyat qururlar. Odur ki, bu marşrut boyu sıx yerləşmiş Naxçıvan kəndlərinin sosial şəraiti, insanların yaşayış vəziyyəti, dəbdəbəli ev və villalar, onların necə hasilə gəldiyi də ayrıca bir təqdimat obyektidir.

Naxçıvan-Əlincə marşrutunun tarixi tanışlıq gücü qədər Naxçıvan-Batabat marşrutunun təbii gözəllikdən qaynaqlanan ecazkarlığı vardır. Naxçıvan şəhərindən başlayaraq ilk karvansara kimi tanınan tarixi Fərhad evinə qədər nələr yoxdur bu marşrut üzərində? Təbiət həvəskarları üçün burada hər daşın, hər qayanın öz hekayəsi çox maraqlıdır. Məsələn, Heydər Əliyev Su Anbarına çatdıqda uzaqdan diqqəti cəlb edən Salvartı dağının və ya Şahbuz qalasının təqdimatı başlayır. Hələ Şahbuz şəhərinə çatmamış əzəmətli Bayraq Meydanı bu gözəl məkan haqqında təəssüratları birə-beş artırır. Batabat marşrutu üzrə gedən turistlər Şahbuz şəhərinin abadlığı ilə də yaxından tanış olacaqlar. Qoy turistlərimiz Batabat dağlarına qalxdıqca şahbuzluların bu torpaqda yaşadıqlarına görə necə xoşbəxt olduqlarını öz gözləri ilə görsünlər.



Turizm marşrutlarımız geniş mövzudur. Naxçıvanın tarixinin bitməz-tükənməz sirləri kimi turizm marşrutlarımızın perspektiv imkanları da genişdir. Bunlar həm araşdırma mövzusu, həm də yeni iqtisadi layihədirlər. Əminik ki, hazırda güclü tələbatı olan marşrutlarla yanaşı, gələcəkdə Naxçıvan-Nehrəm, Naxçıvan-Qanlıgöl, Naxçıvan-Oğlanqala, Naxçıvan-Nəhəcir istiqamətləri də turistlər tərəfindən sevilən real marşrutlara çevriləcək. Bunun üçün muxtar respublikamızın turizm marşrutlarından istifadə ilə bağlı hər bir ziyalı vətəndaşın, hər bir naxçıvanlının fəallığı tələb olunur. Bilirik ki, turizmin faydaları çoxdur. Odur ki, bundan bəhrələnmək üçün doğma Naxçıvanımızın hər qarışının turizm ehtiyatı kimi dəyərləndirilməsi, yaradılan şəraitdən maksimum istifadə tələb olunur.

*Hörmətli oxucular! İl ərzində sizə təqdim edəcəyimiz "Turizm marşrutları" rubrikalı yazılarda Naxçıvanın turizm marşrutları barədə ayrı-ayrılıqda məlumat verəcəyik. İnanırıq ki, bu turizm marşrutları üzərindəki xidmət obyektləri, tarix və mədəniyyət abidələri, təbiət gözəllikləri, həmin turizm marşrutunun keçdiyi ərazilərdə dolaşan əfsanələr, rəvayətlər barədə məlumatlar oxucularımız üçün maraqlı olacaqdır.*

**Əli CABBAROV**
**Əli XUDİYEV**

# Mahmudkənd stadionu yenidən qurulub





***Bu gün muxtar respublikamızda, ümumilikdə, 40 minə yaxın yeniyetmə və gənc fəal şəkildə idmanla məşğul olur. Onların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir, əldə olunan qələbələrin sayı gündən-günə artır.***

Hər il idmançıların istifadəsinə verilən yeni obyektlər də qazanılan uğurların başlıca səbəblərindəndir. İdmançıların istifadəsinə verilən belə idman obyektlərindən biri də Şərur rayonundakı Mahmudkənd stadionudur. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının birgə təşkilatçılığı ilə stadionda açılış görüşü keçirilib. Şərurun "Arpaçay" komandası Naxçıvan Muxtar Respublika çempionatının 17-ci turunda "Araz-Naxçıvan"ı qəbul edib və məğlub olub – 0:2.

Oyundan öncə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək son illər Naxçıvanda idman sahəsində görülən işlərdən, keçirilən beynəlxalq turnirlərdən danışıb. Qeyd olunub ki, muxtar respublikanın təkcə şəhər və rayonlarında yox, həmçinin kəndlərində də gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün idman zalları, meydançalar tikilir. Məqsəd muxtar respublikada yeniyetmə və gənclərin sağlam böyüməsi üçün onları idmana cəlb etməkdir. Nazir diqqətə çatdırıb ki, Mahmudkənd stadionunun təmirinə cari ilin mart ayının 1-dən başlanılıb, obyekt standartlara uyğun olaraq qurulub.

Sonra Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev çıxış edərək Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsinin və idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında və kəndlərində idmana maraq yüksək səviyyədədir. Təqdirəlayiq haldır ki, belə stadionlar təkcə rayon mərkəzlərində və Naxçıvan şəhərində deyil, müxtəlif kəndlərdə də fəaliyyət göstərir. Bu da gənclərin idmana marağını daha da artırır.

Kənd sakinləri göstərilən belə qayğıya və yaradılmış şəraitə görə Naxçıvan Muxtar Respublikasının rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, yeni təmir olunmuş stadionun 3 tərəfi hasarlanıb, bir tərəfində isə idmançıların rahatlığı üçün 2 soyunub-geyinmə və hakim otaqları tikilib. Bununla yanaşı, azarkeşlərin oyunları rahat izləmələri üçün 110 nəfərlik tribuna hazırlanıb. Tribuna müasir oturacaqlarla təmin olunub. Stadion ərazisində məşq etmək üçün qurğular da quraşdırılıb. Uzunluğu 106, eni isə 63 metr olan meydançaya xüsusi ot toxumu səpilib. Stadionun ot örtüyünün suvarılması məqsədilə daimi su sistemi quraşdırılıb. Stadionun ərazisində yaşıllıq zolağı salınıb. Buraya 400 ağac tingi, 600 bəzək kolu və 60 ədəd həmişəyaşıl ting əkilib.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdikləri ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Heydər Əliyev kuboku" uğrunda Əlincəqalaya yürüş üzrə Naxçıvan Muxtar Respublika açıq birinciliyi keçirilib.*

# *Əlincəqalaya* yürüş üzrə Naxçıvan Muxtar Respublika açıq birinciliyi



150-dən çox idmançının mübarizə apardığı birinciliyin açılış mərasimində Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov, Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Hafiz Yaqubov, təhsil naziri Məmməd Qəribov çıxış ediblər. Çıxışlarda muxtar respublikada həyata keçirilən idman siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən söhbət açılıb. Bildirilib ki, müstəqil Azərbaycan Respublikasının uğurlu idman siyasətinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dövlətin apardığı idman siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirilir. Prezident İlham Əliyevin həyata keçirdiyi bu siyasət nəticəsində gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevriliblər.

Vurğulanıb ki, gənclərin bütün sahələrdə irəli çəkilməsi, onların intellektual səviyyələrinin artırılması, asudə vaxtlarının səmərəli təşkili, vətənpərvər ruhda tərbiyə olunması, beynəlxalq əhəmiyyətli tədbirlərdə yaxından iştirakı məsələləri daim diqqətdə saxlanılır.

Sonra yarışa start verilib. 5 yaş qrupu üzrə keçirilən yarışda 14-16 yaşlı qızların mübarizəsində Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin şagirdi Zülfiyyə Mehdiyeva birinci olub. Digər iki pillədə isə Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri Qaratel Camalova və Telli Abbasova qərarlaşıblar. 17-19 yaşlı qızlar arasında isə Əlincəqalanın zirvəsinə daha tez Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Sahilə Nəbiyeva çatıb. Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin şagirdi Aynur Musazadə ikinci, Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Ceyhunə Kalbalıyeva isə üçüncü olublar.

14-16 yaşlı oğlanların mübarizəsində Heydər Əliyev adına Hərbi Liseyin kursantları Cəfər Quliyev, Vüqar Abdullayev və Mustafa Mustafazadə ilk 3 pillədə qərarlaşıblar. 17-19 yaşlı oğlanlar arasında Ramin Bağırov, Mirdamət Eminov (hər ikisi Heydər Əliyev adına Hərbi Lisey) və Elşad Əliyev (Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb) zirvəni daha tez fəth ediblər.

Sonda qaliblərə diplom, hədiyyə və kubok təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**









## *Gülkarlıqlar* Naxçıvan şəhərinin yaraşığıdır
## Bəs onlara necə qulluq edirik?

***Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərindən biri də şəhər və kəndlərimizdəki park və xiyabanlarda, magistral yol kənarlarında yaşıllıqların salınması, gülkarlıq və istirahət guşələrinin yaradılmasıdır. Naxçıvanlılar yaşayıb-işlədiyi hər yerin ətrafını gözəl görməyə çalışır, abadlığa ciddi fikir verirlər. Bəlkə buna görədir ki, Naxçıvanın bütün şəhər və kəndlərində ictimai təşəbbüslərlə salınan və qayğı ilə qulluq edilən gülkarlıqları görən sadə vətəndaşlar da yaşadıqları evlərin ətrafında gözoxşayan yaşıllıq və gülkarlıqlar salmağa başlayıblar.***

Yaşıllıq sahələrinin genişləndirilməsi muxtar respublikamızın son iyirmi bir ildə əldə etdiyi ən mühüm uğurlardandır. Bu sahədə əldə olunan nəticələr fərəhdoğurucudur. Təkcə bir faktı nəzərə çatdıraq ki, 1995-ci ildə Naxçıvanda ərazinin cəmi 0,6 faizi yaşıllıq idisə, hazırda bu rəqəm 12 faizi ötüb. Amma heç rəqəmə ehtiyac olmadan bugünkü ortayaşlı naxçıvanlı öz gözü ilə şahiddir ki, o dövrdə, yəni ötən əsrin 90-cı illərinin əvvəllərində indiki gözoxşayan park və xiyabanların yerində nə var idi... Harda gəldi qoyulmuş qaydasız köşklər, plansız tikilmiş dükanlar, sökülüb-dağılmış bardürlər və sair. Jurnalist həmkarlarım yaxşı xatırlayırlar, 1990-cı illərin ortalarında Bakıdan Naxçıvana gəlmiş çəkiliş qrupunu ilin bu may ayında çiçəklik çəkə bilmələri üçün təkcə Möminə xatın türbəsi ətrafından başqa göstərəcək bir yer yox imiş. Bu gün Naxçıvana gəlmiş qonaqlar şəhərimizi dünyanın ən təmiz şəhəri adlandırır və sözün əsl mənasında, gül bağçasına bənzədirlər. Bunu həmin qonaqların öz vətənlərinə geri qayıtdıqda yazdıqları təəssüratlardan oxuyuruq. Xüsusən şəhərimizin giriş yollarından mərkəzə doğru irəlilədikcə yaradılmış yaşıllıq və gülkarlıqlar hamının gözünü oxşayır. Və hamımız yaxşı bilirik ki, bir zamanlar yanacaq çatışmazlığından qırılıb məhv edilmiş meyvə ağaclarının yerində salınmış yaşıllıq zolaqları, meyvə bağları, gülkarlıqlar Naxçıvanın sərt və quru iqlimi şəraitində yalnız işə doğma münasibətin nəticəsində hasilə gəlib.

Yaşıllıqlar uşaq kimidir. Doğrudan da, rəngarəng hüsnündən zövq alıb istirahət etdiyimiz yaşıllıqlara uşaq kimi nəvaziş göstərməsək, onlar da saralıb-solacaq və sonda məhv olacaq. İndi hər yerdə həvəslə qulluq edilən gülkarlıqlarla yanaşı, şəhərimizin bəzi yerlərində, həm də hamının gözünün qabağında gül əkilmiş baxımsız yerləri görəndə bu qənaətə gəlməmək olmur. Misal üçün, şəhərin tam mərkəzində, Dədə Qorqud meydanında baxımsızlıqdan boynubükük qalmış gül kollarını digərləri ilə necə müqayisə edəsən? Və yaxud Naxçıvan Dövlət Universitetinə gedən yolboyu geniş bir ərazidə ətrafını ot basmış tək-tük gül kollarının yaratdığı mənzərə, görəsən, tez-tez bu təhsil ocağına gələn əcnəbi qonaqlarda hansı təəssürat yaradır? Heydər Əliyev Mədəniyyət və İstirahət Parkının girəcəyindəki gülkarlığın mənzərəsi onunla qonşu olan Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin və Uşaq-gənclər idman məktəbinin həyətində yaradılmış gülkarlığın xoş görüntüsündən çox uzaqdır. Şəhərdə qısa bir gəzinti aparsaq, eyni fikirlər Dövlət Gömrük Komitəsinin həyətindəki gülkarlıqla onun qonşuluğundakı Üzgüçülük Mərkəzinin həyətindəki gülkarlıqlara baxanda da yaranır. Buna bənzər mənzərələrə Naxçıvan şəhərinin mərkəzindən bir az kənarlarda da rast gəlmək olar. Muxtar respublikamıza hər gün yüzlərlə turist gəlir. Onların gördükləri belə mənzərələr Naxçıvanımızın gözəl hüsnünə yaraşmır. Onda belə bir sual ortaya çıxır: səliqə-sahmandan çox uzaq olan bu mənzərələrin yaranmasına səbəb olan müvafiq qurumlarda çatışmayan nədir görəsən? Qoy bu sualın cavabını özləri axtarsınlar.

**Əli CABBAROV**









***Tərkibində zülal, yağ, mineral maddələr, vitaminlər və digər bioloji fəal maddələr olan balıq məhsullarının insanların qidalanmasında böyük əhəmiyyəti var. Bu qəbildən olan məhsulların əksəriyyəti adi şəraitdə uzun müddət keyfiyyətli saxlanıla bilmir. Belə məhsulların saxlanılma müddətini artırmaq üçün onları müxtəlif üsullarla konservləşdirirlər. Balıq məhsullarının konservləşdirilməsində fiziki, fiziki-kimyəvi, kimyəvi və biokimyəvi metodlardan istifadə edilir.***

## Balıq konservləri alarkən diqqətli olmaq lazımdır

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən balıq konservlərinin qablaşdırılmasına, satış şəraitinə və digər amillərə ciddi nəzarət olunur. Bu məhsulların konservlərini alarkən onların qablaşdırılmasına, satış şəraitinə və bəzi amillərə diqqət yetirmək vacibdir.

İstehlakçılar tərəfindən geniş istifadə edilən balıq konservlərinin ticarət şəbəkəsində ən müxtəlif çeşidləri realizə olunur. Təbii konservləri təbii tamını, qoxusunu dəyişən məhsullar əlavə etmədən öz şirəsində, bulyonunda, yeyinti konservlərini isə tomat sous, yağ və digər əlavə edilməklə hazırlayırlar.

Balıq konservləri metal, yaxud da şüşə bankalarda qablaşdırılır. Bu konservlər iri balıqların tikələrindən və xırda balıqlardan hazırlanır.

Metal bankalara yan tərəfdən, yaxud qapağın üstündən litoqrafiya üsulu və ya su aparmayan rənglə məhsulun istehsal, son istifadə tarixi həkk olunur. Eyni zamanda qablaşdırmanın üzərinə yapışdırılan kağız etiketdə istehsalçının adı, ünvanı, əmtəə nişanı, məhsulun qida dəyəri, saxlanma müddəti və digər məlumatlar əksini tapmalıdır.

Konservləri ticarət şəbəkəsində müxtəlif müddətlərdə 20ºC-dək olan temperaturda 75 faizdən çox olmayan nisbi rütubətdə saxlamaq olar. Belə ki, konservlərin optimal temperaturda saxlama müddəti onların növündən asılıdır. Məsələn, yağda hazırlanan balıq konservləri tomatlı konservlərdən daha yaxşı saxlanıldığına görə, onları normativ-texniki sənədlərin tələblərinə uyğun olaraq 0-15º temperaturda 75 faiz nisbi rütubətdə 2 ilə qədər saxlamaq olar. Tomatda olan balıq konservləri isə 0-5º temperaturda 18 aydan artıq olmayaraq saxlanıla bilər. Ümumilikdə isə qida üçün hazır olan və hermetik qablarda daha çox saxlanıla bilən məhsullardan olan balıq konservlərinin saxlama müddəti məhsulun növündən, istehsal texnologiyasından, qablaşdırılmasından və saxlama şəraitindən asılı olaraq 6 aydan 3 ilədək müəyyən edilir.



Balıq konservləri sterilizə olunmuş, hermetik qabda yerləşdirilən, istifadəyə hazır və müəyyənləşdirilmiş müddətədək saxlanılarkən keyfiyyətini itirməyən məhsuldur. Bu konservlər özünəməxsus dada və qida dəyərlərinə malikdir. Çünki hazırlanarkən balığın yeyilməyə yararsız hissələri kəsilib götürülür. Ona tam gətirən ədviyyatlar və bitki yağları əlavə olunur.

Balıq konservləri alarkən istehlakçıların bir sıra məsələlərə diqqətlə yanaşması zəruridir. Çünki keyfiyyətsiz balıq və balıq məhsullarının istehlakı sağlamlığımız üçün ciddi fəsadlar yarada bilər. Bunun baş verməməsi üçün balığın keyfiyyətinə, saxlanma şəraiti və müddətinə xüsusi fikir verilməlidir. Bu məhsulları alarkən onların markalanmasında olan məlumatları diqqətlə nəzərdən keçirmək lazımdır.

Qeyd edək ki, balıq konservləşdirilmiş metal qablarda bombajlar (qabarmalar), batıqlar və pas olduqda onları almaq olmaz.

Muxtar respublika ərazisində ərzaq məhsullarının pərakəndə satışını həyata keçirən ticarət və ictimai iaşə obyektlərində aldığınız hər hansı bir ərzaq məhsulunun satışı və istifadəsi zamanı hüquqlarınızın pozulması hallarına rast gəldiyiniz zaman Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə müraciət edə bilərsiniz.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Hüquqi-maarifləndirmə günün tələbidir

***Sual:** Torpaqlar müvəqqəti istifadəyə hansı müddətə verilir?*

Cavab: Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 50-ci maddəsinə əsasən, torpaq sahəsi üzərində istifadə hüququ müvafiq qərar (müqavilə) əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə etməkdir. Torpağın istifadəyə verilməsinə görə torpaq vergisindən başqa haqq alınmır.

Torpaqdan müvəqqəti istifadə qısamüddətli və uzunmüddətli olur. Qısamüddətli müvəqqəti istifadə on beş ilədək müəyyən edilə bilər. Uzunmüddətli müvəqqəti istifadə xüsusi mülkiyyətdə olan torpaqlar üçün on beş ildən 99 ilədək, dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlar üçün isə on beş ildən 49 ilədək müəyyən oluna bilər.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlar daimi və ya müvəqqəti istifadəyə müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən verilir. Torpaqdan istifadə müddətləri həmin torpaq sahələrini müvəqqəti istifadəyə vermiş orqanlar tərəfindən uzadıla bilər. Bələdiyyə torpaqları istifadə hüququ ilə yalnız bələdiyyənin mülkiyyətində olan müəssisə, idarə və təşkilatlara verilə bilər.

Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin istifadəyə verilməsi həmin sahələrin mülkiyyətçiləri ilə istifadəçilər arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanan müqavilə əsasında həyata keçirilir. Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin müvəqqəti istifadə müddətinin uzadılması həmin sahələrin mülkiyyətçiləri ilə yeni müqavilənin bağlanması əsasında aparılır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma bir ildən üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Qeyd olunan əməllər kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədildikdə üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq olunur. Həmçinin yuxarıda nəzərdə tutulmuş əməllər təkrar və şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə isə beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

***İtmişdir***

Naxçıvan şəhəri, Azər Tarverdiyev küçəsi, ev 1-də yaşamış İsmayılova Firəngiz Məhəmməd qızının adına verilmiş 13043 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 386